# Həftəlik
# *Bülleten*



**069**
**15 Noyabr 2024**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

## Azərbaycan Sement İstehsalçıları Assosiasiyasının Xalis Sıfır Yol Xəritəsi COP29-da təqdim olundu.

Azərbaycan Sement İstehsalçıları Assosiasiyası ölkənin sement və beton sektorunun Xalis Sıfır Yol Xəritəsini BMT-nin İqlim Dəyişmələri üzrə konfransı - COP29 Azərbaycanda təqdim etdi. Assosiasiyanın üzvləri inşaat sektorunda karbon emissiyalarının azaldılmasını sürətləndirmək cəhdlərini qlobal arenada da nümayiş etdirdilər. Layihənin təqdimatında Azərbaycan Sement İstehsalçıları Assosiasiyasının direktoru İsrail Asəliyev, Qlobal Sement və Beton Assosiasiyasının (GCCA) CEO-su Tomas Giyo, VDZ Elmi-Tədqiqat İnstitunun CEO-su və Avropa Sement Tədqiqatları Akademiyasının nümayəndəsi Martin Şnayder, PMD Projects şirkətinin CEO-su Nəriman Topçibaşov spiker qismində çıxış etdilər. İsrail Asəliyev tədbirin açılış nitqini etdi və qeyd etdi ki, Azərbaycanın sement sənayesi təkcə yerli deyil, qlobal səviyyədə də lider sənayelərdən biri hesab oluna bilər. Tomas Giyo Qlobal Sement və Beton Assosiasiyası haqda məlumat verərək, qeyd etdi ki, sement və beton sənayesində dayanıqlı inkişaf təşəbbüslərini dəstəkləmək üçün yaradılan qurumun ilk gündən etibarən, gündəliyində sement sənayesinin xalis sıfır emissiyalarla bağlı proqramları dayanır. Spikerlərin çıxışlarından sonra panel müzakirələri baş tutdu, sement şirkətlərinin CEO-ları assosiasiyanın missiyası ətrafında bir araya gəldiklərindən danışdılar və karbon emissiyalarının azaldılması ilə bağlı sualları cavablandırdılar.



**PMD Projects şirkətinə COP29 -da Azərbaycanda ilk GPM 360 sertifikatı təqdim olundu.**

“PMD Projects” MMC şirkətinin direktoru Nəriman Topçibaşevə COP29-da GPM Global şirkətinin icraçı direktoru Oksana Klimenko tərəfindən GPM 360 (Green Project Management) sertifikatı təqdim olunub. Bununla şirkət davamlı inkişaf və ekoloji idarəetmə prinsiplərinə uyğun fəaliyyətini bir daha təsdiq edib. GPM 360 sertifikatı yaşıl layihə menecmenti standartlarının ən yüksək göstəricilərindəndir. Bu sertifikat PMD Projects-in həyata keçirdiyi “Hilton Garden Inn” layihəsində proslərinin dayanıqlı olmasının təsdiqidir. Bununla layihənin idarəedilməsində resurslarslardan effektiv istifadənin təmin edilməsinə, ekolojı təsirlərin minimallaşdırılmasına, layihə davamlılığına təsir göstərə biləcək risklərin sürətli müəyyən edilməsinə, əməliyyat xərclərinin azaldılmasına nail olunub. Qeyd edək ki, standart çərçivəsində proseslərin qiymətləndirilməsi GPM Global-ın Azərbaycanda yeganə akkreditasiyalı tərəfdaşı PMO.az Layihə Düşüncə Məktəbi tərəfindən həyata keçirlmişdir. Vurğulayaq ki, PMD Projects qabaqcıl dayanıqlı inşaat təcrübələrini tətbiq edərək təşviqini fəal şəkildə dəstəkləyir. Şirkət bu istiqamətdə bir sıra beynəlxalq sertifikata malikdir (İSO 50001:2022, İSO 9001:2015, İSO 14001:2015, İSO 45001:2018).



**"Bakıda qəzalı vəziyyətdə olan 1100 bina var."**

"Bakıda qəzalı vəziyyətdə olan, öz resursunu başa vurmuş çoxmənzilli yaşayış binalarının inventarizasiyası və bu binalarda yaşayan sakinlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi məqsədilə yaradılmış müvafiq Komissiya fəaliyyətə başlayıb".

Bunu Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib.

O bildirib ki, Bakı şəhərində qəzalı vəziyyətdə olan 1100 bina var: "Ardıcıllıqla bu binalar sökülür. Vətəndaşlara yeni evlər təklif olunur. Hər halda bu proses göz qabağındadır. Bir anda 1100 evi söküb onun əvəzində yeni bina tikmək mümkün deyil. Proses çərçivəsində bu məsələlər öz həllini tapacaq və tapır. Bakı şəhərinin yeni Baş Planı təsdiq edilib. Aparılan söküntü işləri də bu Baş Planla əlaqədardır. Hardasa yeni binalar tikilməsi nəzərdə tutulub, hardasa, park nəzərdə tutulub. Baş Plan əsas strategiyadır. Baş Plan daim inkişafdadır, əsas kimi qəbul edilib. Baş Plan əsasında bu gün yeni parklar salınır, söküntülər aparılır. Bu dəfə Bakının Baş Planı çoxmərkəzlilik prinsipi əsasında yaradılıb və bu gün biz bunu icra edirik".



**Yeni aeroportun tikintisi bu ərazidə daşınmaz əmlakın qiymətini qaldıracaq.**

1 sotu 2 min manata olan torpaq sahəsi, 15 min manata təklif olunacaq. Söhbət paytaxtın Qaradağ royunu Ələt qəsəbəsindən gedir.

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev bildirib ki, infrastrukturun yenilənməsi, hava limanının tikilməsi bu ərazidə daşınmaz əmlakın qiymətinə təsir edib.

Ekspert bildirib ki, hazırda həmin ərazidə 1 sotu 2 min manata təklif olunan torpaq sahələrinin 2026-cı ilə qədər 6 min manatadək yüksələcəyi proqnozlaşdırılır. Hava limanı istifadəyə verildikdən sonra isə 2 min manata təklif olunan torpaq sahəsi 15 min manat civarında təklif olunacaq. Qeyd edilib ki, 2026-ci ildə inşasının başa çatırılması nəzərdə tutulan hava limanı 8 təyyarə dayanacağı, 4000 metrlik uçuş-enmə zolağı, taksi yolları, hava hərəkəti idarəetmə mərkəzi, yanacaq və yanğınsöndürmə xidmətləri və digər əlaqəli obyektləri əhatə edəcək.

Yeni obyektlər Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, geniş dəmir yolu və avtomobil qovşaqlarına, eləcə də yeni hava limanına çıxış əldə edəcək.



**Azərbaycanda çınqıl istehsalı kəskin artıb.**

2024-cü ilin yanvar-sentyabr ayları ərzində Azərbaycanda 2 milyon 332,8 min ton çınqıl istehsal edilib.
Bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.
Məlumata görə bu 2023-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 925,3 min ton və ya 65,7 % çoxdur.
Belə ki, 2023-cü ilin 9 ayı ərzində Azərbaycanda 1 milyon 407,5 min ton çınqıl istehsal edilmişdi.



**ATMİA üzvlərinin iştirakı ilə COP29 tədbiri olan "Ekoloji hədəflər - Dubay 2050" biznes forumu keçirilib.**

14 noyabr tarixində İqtisadiyyat Nazirinin müavini cənab Ənvər Axundov, B.Ə.Ə ölkəmizdəki səfiri, ATMİA Fəxri üzvü cənab Məhəmməd Murad Əl Bluşi, Dubay Əmirliyi hökümət rəsmiləri və ATMİA üzvlərinin iştirakı ilə COP29 tədbiri olan "Ekoloji hədəflər - Dubay 2050" biznes forumu keçirilib.
Forum zamanı baş tutan müzakirələrdə və görüşlərdə iki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi, biznesdə ekoloji cəhətdən innovativ həllər mövzularına toxunulmuş, mühüm biznes əlaqələri qurulmuşdur.



**MUTLU USTAM Qrupunun Bakı şəhərində "MATANAT A" şirkətlər qrupunun istehsal etdiyi boya məhsullarının təqdimat tədbiri baş tutmuşdur.**

Matanat A Ustalar Klubuna daxil olan MUTLU USTAM Qrupunun Bakı şəhərində, Azərbaycanın və regionun inşaat materialları bazarında liderliyini qoruyub saxlayan "MATANAT A" şirkətlər qrupunun istehsal etdiyi boya məhsullarının təqdimat tədbiri baş tutmuşdur.

Tədbir zamanı şirkətin Müştəri Loyallığı şöbəsinin müdiri, Əkbər Dostumalıyev öz çıxışında şirkətin inkişaf yolu və gələcək məqsədləri ilə bağlı məlumat verib. Eyni zamanda “ROKOL” boya, “MUTLU” boya və “MİRVANA” dekorativ boya məhsulları, eyni zamanda FASMİNERAL dekorativ fasad suvağı haqqında ustalara ətraflı məlumat verildi. Verilən məlumatlar, təşkil olunan master klasslar iştirakçılar tərəfindən dərin rəğbətlə qarşılandı.

Kluba üzv olan ustaların birbaşa iştirakı ilə master klass həyata keçirildi. Şirkətin istehsal etdiyi məhsulları test edərək keyfiyyəti ilə daha yaxından tanış olub, öz müsbət fikirlərini bildirdilər.






# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: ISF - ISFAHAN STONE FAIR 2024**
**Tarixlər: 20-23 noyabr 2024-cü il,**
**Məkan: İsfahan Beynəlxalq Sərgi Sərgisi, İsfahan (İran)**
Daş, Karxanalar və Müvafiq Sənayelərin Beynəlxalq Sərgisi

**Sərginin adı: BUILDING IRAQ 2024**
**Tarixlər: 22-24 noyabr 2024-cü il,**
**Məkan: Bağdad Beynəlxalq Sərgi Sahələri, Bağdad (İraq)**
İraq Beynəlxalq Bina, İnşaat Materialları və İnfrastruktur Sərgisi

**Sərginin adı: BIG 5 GLOBAL 2024**
**Tarixlər: 26 - 29 noyabr 2024-cü il,**
**Məkan: Dubay Dünya Ticarət Mərkəzi (Dubay Sərgi Mərkəzi), Dubay (BƏƏ - Birləşmiş Ərəb Əmirlikləri)**
Beynəlxalq Tikinti, Su Texnologiyası və Ətraf Mühit, Kondisioner və Soyuducu, Təmizlik və Baxım, Şüşə və Metal Sərgisi

**Sərginin adı: RESTRUCTURA 2024**
**Tarixlər: 21-23 noyabr 2024-cü il,**
**Məkan: Lingotto Fiere, Torino (İtaliya)**
Şimal-Qərbi İtaliyada ev, onun yenidən qurulması, təmiri üçün ən böyük sərgi. Görüşlər, konfranslar, seminarlar, peşəkar təlimlər...

**Şuşada Peşə Təhsili Mərkəz təmir ediləcək, 8 milyon manatlıq – TENDER**

Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi açıq tender elan edir.
Elanda Şuşa şəhər Peşə Təhsili Mərkəzinin əsaslı təmiri işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Salahova Nuranə-Gülgün, baş mütəxəssis
Email : Nurana.Gsalahova@etti.edu.az
Əlaqə telefonu : 012 465 73 48



**Nazirlik təmir işləri ilə bağlı – TENDER KEÇİRİR**

Ədliyyə Nazirliyi açıq tender elan edir.
Elanda Ədliyyə Nazirliyi tərəfindən maliyyə təminatı həyata keçirilən məhkəmələrin inzibati binalarında cari təmir işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Anar Vəliyev, Baş məsləhətçi
Email : anar.veliyev@justice.gov.az
Əlaqə telefonu : +99412 492 62 35



**Azərbaycan Milli İncəsənət Müzeyində bərpa işləri ilə bağlı – TENDER**

“Əsaslı Tikinti və Təchizat” MMC açıq tender elan edir.
Elanda Azərbaycan Milli İncəsənət Müzeyində asma tavanının bərpası işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Teymur Məmmədov, Baş mütəxəssis
Email : tender@culture.gov.az
Əlaqə telefonu : 012 565 0147 (448)



## Dövlət Fondunun binasının təmir və bərpasına 18 milyon manat - SƏRF EDİLƏCƏK

İpoteka və Kredit Zəmanət Fondu açıq tender elan edir.
Elanda yeni inzibati binada təmir-bərpa işlərinin satın alınması nəzərdə tutulub. Qeyd edək ki, Bakı şəhəri, Nərimanov rayonu, Akademik Ziya Bünyadov prospekti, 1969-cu məhəllədə yerləşən inzibati binaya dair tikinti layihəsi üzrə işlər satın alınacaq.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Adil Sadıqov, Təchizat departamentinin Ekspertiza və təmir şöbəsinin rəisi
Email : adil.sadigov@mcgf.gov.az
Əlaqə telefonu : (+994 12) 498 18 01 (daxili 226)



**Dövlət qurumu təmir işləri ilə bağlı – TENDER KEÇİRİR**

Yardımlı Rayon İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda "Yardımlı şəhər küçələrində büdcədənkənar vəsait hesabına qurğuların (tikintilərin) əsaslı təmir işləri"nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Mirzəyev Sərvər, Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar
Email : miri-83@mail.ru
Əlaqə telefonu : 0502634686





**www.atmia.az**